**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ƏDALƏT VƏ İNKİŞAF PARTİYASI DÖVRÜNDƏ TÜRKİYƏ SİYASİ SİSTEMİNİN TRANSFORMASİYASI

| | |
|---|---|
| İxtisas: | 5904.01 - Siyasi institutlar və sistemlər |
| Elm sahəsi: | Siyasi elmlər |
| İddiaçı: | **Züriyə Ruslan qızı Qarayeva** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2022**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Rəcəb Zakir oğlu Rəhimli**

Rəsmi opponentlər: siyasi elmlər doktoru, professor
**Hicran Kamran qızı Hüseynova**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Ləman Zahid qızı Qarayeva**

siyasi elmlər üzrə fəlsəfə doktoru
**Səyavuş Kamran oğlu Qasımov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində yaradılmış BED 2.30/1 Birdəfəlik Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: ____________ akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: ____________ siyasi elmlər doktoru, professor əvəzi
**Sevda Ağamirzə qızı Əliyeva**

Elmi seminarın sədri: ____________ siyasi elmlər doktoru, professor əvəzi
**Sevil İmamverdi qızı Məmmədova**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Hakimiyyət qolları arasındakı əlaqələrin xarakteri əsasında idarəçilik formaları ilə bağlı müzakirələrin dünya təcrübəsində uzun keçmişi olsa da, Türkiyədə əsas olaraq 1982-ci ildən başlamışdır. Türkiyə də daxil olmaqla, dünyanın bir çox ölkəsində parlament idarəçilik forması hökumət problemlərini aradan qaldıra bilməməsi iddiası ilə dəyişikliyə məruz qalmışdır.

Uzun illik parlamentarizm təcrübəsinə sahib olan Türkiyədə 1961-ci il konstitusiya dəyişikliyi ilə saf parlamentarizm tətbiq edilsə də, parlament sistemi bu ölkədə problemlərin həllinə kömək edə bilməmiş və bu, hərbi çevrilişlərlə özünü açıq göstərmişdir. 12 sentyabr 1980-ci ildə baş tutmuş hərbi çevriliş nəticəsində baş nazir Süleyman Dəmirəl hakimiyyətdən istefa verməyə məcbur edildi, Türkiyə Böyük Millət Məclisinin və siyasi partiyaların fəaliyyəti qadağan edildi. Partiya liderləri bir müddət hərbi əsaslarla nəzarət altında saxlanıldıqdan sonra məhkəmə qarşısında mühakimə edildi. 2 il davam edən bu siyasi böhranın ardından 1982-ci ildə konstitusiyaya edilən dəyişikliklərlə parlament sistemi öz saflığını itirməyə başladı. Məhz həmin dövrdən başlayaraq yeni idarəçilik sisteminə keçidlə bağlı ciddi müzakirələr başlamışdır. Turqut Özal, Süleyman Dəmirəl, Alparslan Türkeş kimi liderlər tərəfindən bu problemlərin həllinə rəvac vermək məqsədilə yeni idarəçiliyə keçid təklif edilmiş və bunun sayəsində prezidentin birbaşa xalq tərəfindən müəyyən müddətə seçilməsi və parlamentin etimadsızlıq göstərərək hökuməti istefaya göndərə bilməməsinin sabitlik yaradacağı düşünülmüşdür.

2002-ci ildə hakimiyyətə gələn Ədalət və İnkişaf Partiyasının qurucusu Rəcəb Tayyib Ərdoğanın hakimiyyəti dövründə siyasi sistemin dəyişilməsi daha ciddi gündəmə gəlmişdir. 2007-ci ildə yenidən xalqın dəstəyini qazanan R.T. Ərdoğanın konstitusiya dəyişikliklərini referenduma gətirərək dövlət başçısının xalq tərəfindən seçilməsinə nail olması prezident üsul-idarəsinə keçid yolunda önəmli addım oldu. 2010-cu ildə Türkiyədə siyasi hakimiyyətin rolunun artırılması məqsədilə keçirilən referendum "paralel dövlət"ə sahib olan və hərbi çevrilişlə siyasi hakimiyyətin

zorla devrilməsini illərdir əlində saxlayan qüvvələrin planlarını alt-üst etdi, yeni Konstitusiya islahatlarının davam etdirilməsi üçün zəmin yaratdı. Sonrakı dövrdə isə PKK terrorçu qruplaşmalarının davamlı şəkildə terror və təhdidi, Suriyadan gələn 3 milyondan çox qaçqın məsələsi, ölkədə təkrarlanan terror hücumları, 15 iyul 2016-cı ildə FƏTÖ terror təşkilatı tərəfindən dövlət çevrilişinə cəhd edilməsi güclü prezidentlik sisteminə tələbatı artırdı. 2017-ci ilin aprel ayında keçirilən referendum nəticəsində parlament üsul-idarəsindən prezident idarəçiliyinə keçid edildi. Şübhəsiz ki, ölkədə prezident idarəetmə sisteminə keçid birmənalı qarşılanmadı. Prezident Ərdoğan iddia edir ki, yeni sistem qərar qəbulunu sabitləşdirəcək və keçmişdə Türkiyəni inkişafdan saxlayan yöndəmsiz parlament koalisiyalarını aradan qaldıracaq. Sistem dəyişikliyini tənqid edənlər isə yeni idarəçilik formasının "seçkili diktatura" olacağını, hakimiyyət bölgüsünün aradan qalxacağını, parlamentin hüquqi səlahiyyətinin qalmayacağını, prezidentdən yol verdiyi nöqsanlara görə hesabatlılıq tələb edə bilməyəcəyini iddia edirlər.

Tətbiq edilmiş sistemin üstünlüklərini və qüsurlarını müəyyənləşdirmək üçün 4-5 illik seçki müddətinin tamamlanmasını gözləmək lazımdır. Bu dövr tam yekunlaşmadığı üçün daha çox ehtimallar üzərinə danışmaq mümkündür. Bu baxımdan Türkiyədə yeni idarəçilik sisteminin tətbiqinin ölkə üçün nəticələrinin nə olduğu və prosesin hansı istiqamətdə bundan sonra cərəyan edəcəyi aktuallıq kəsb edir.

Tədqiqat mövzusunun aktuallığını əsaslandıran müddəaları aşağıdakı şəkildə sıralamaq olar:

- Türkiyədə AK Partiyanın sistemi mərkəzləşdirmə siyasəti kontekstində qlobal siyasətdə geosiyasi və geoiqtisadi vəziyyəti ciddi surətdə dəyişmək qüdrətinə malik olan, yalnız xalq və dövlət miqyasında deyil, həm də ölkə masştabından kənarda da liderlik edə bilən xarizmatik lider dövrünün güc qazanması;
- Dünyada beynəlxalq münasibətlər sisteminin dəyişilməsi, dünya nizamına yön verilməsi istiqamətində rəqabətin getdiyi bir vaxtda Türkiyədə referendum dəyişikliyinin bu ölkənin qlobal güc olma yolunda uğurlu dəyişikliklərə yol açması;

- Türkiyənin dünya nizamının dəyişilməsinə təkan verən müdafiə sənayesinin inkişafına güclü prezidentlik amilinin, prezidentin müstəqil siyasi xəttinin təsiri;
- Regional təhlükəsizlik problemləri, bunun Türkiyə üçün yaratdığı risklər qarşılığında Ankaranın milli maraqları kontekstində yürütdüyü siyasətin regional və qlobal siyasətə təsiri;
- Türkiyə-Azərbaycan əlaqələrinin referendum dəyişikliyindən sonra xüsusi mərhələyə keçməsi;
- Türkiyədə tətbiq edilən yeni idarəçilik sisteminin Azərbaycanda uğurla işləyən prezidentlik modeli ilə bənzər xüsusiyyətlərə sahib olması;
- Siyasi transformasiyanın ən yeni tarixdə həyata keçməsi;
- Təqdim olunan dissertasiyanın bu sahədə siyasi elmdə ilk kompleks xarakterli araşdırma olması və s.

Türkiyədə idarəçilik sisteminin dəyişilməsi və dəyişikliklərin 2018-ci ildən tətbiq edilməsi dissertasiya mövzusunun aktuallığını göstərməklə yanaşı, çoxsaylı tədqiqatçılar tərəfindən araşdırma predmeti olmasını təmin etmişdir. Dissertasiya üzərində işləyərkən Azərbaycan, rus, türk və ingilis dillərində yazılan ədəbiyyat və mənbələr təhlil edilmişdir.

Azərbaycan müəlliflərinin əsərlərinin təhlili əsasında ilk növbədə dövlət idarəçilik sistemi və idarəçilik ənənələri ilə bağlı Ümummilli lider Heydər Əliyevin əbədiyaşar kəlamlarını, zəngin dövlətçilik irsinin müəyyən hissəsini özündə əks etdirmiş "Müstəqilliyimiz əbədidir" və Prezident İlham Əliyevin idarəçiliyə dair zəngin ideyalarının yer aldığı "İnkişaf məqsədimizdir" çoxcildli kitabları bu baxımdan fundamental konsepsiya rolunu oynayır. [1] Dissertasiyanın əsas tədqiqat predmeti olan dövlət idarəçiliyinin müxtəlif aspektlərdən təhlili baxımından Urxan Ələkbərovun da əsərləri başlıca yerlərdən birini tutur.[2]

---

[1] Əliyev H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. 46 cilddə, – Bakı: Azərnəşr 1997-2013; Əliyev İ. İnkişaf məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər. 120 cilddə, – Bakı: Azərnəşr, 2003-2022

[2] Ələkbərov U. İnkluziv inkişafın idarə edilməsinin əsasları. (Ali məktəblər üçün dərslik), Bakı: Təhsil, 2018. – 216 s.; Alakbarov U. Sürdürülebilir İnsani Gelişim

Rəcəb Rəhimlinin Azərbaycanda dövlət idarəçiliyinin əsaslarının təhlil edildiyi, Türkiyədə nəşr olunan kitab və məqalələrini istər siyasi sistemin təhlilində, istərsə də, dissertasiya işinin tədqiqatı zamanı Azərbaycanla Türkiyə idarəçilik sisteminin qısa müqayisəsi zamanı tədqiq baxımından əlverişli mənbə hesab etmək olar. [3]

Ziyafət Həbibova, Nigar Ələkbərova, Murtaza Həsənov, Mustafa İsgəndərzadə və başqalarının müəllif olduğu kitab və məqalələr də bu xüsusda diqqətəlayiqdir[4].

Bütövlükdə Azərbaycan siyasi elmi kontekstində mövzunun müxtəlif aspektlərinə həsr olunmuş elmi ədəbiyyatın təhlili müvafiq istiqamətdə, Türkiyədəki idarəçilik sisteminin dəyişikliyi və referendum nəticələrinin təhlili əsasında kompleks araşdırmanın dissertasiya çərçivəsində aparılmadığını göstərir.

İngilis müəlliflərinin əsərləri içərisində bizim araşdırdığımız problemlərin müxtəlif aspektlərinə toxunan kifayət qədər qaynaqlara rast gəlinir. Dövlət idarəçilik formalarının təhlili ilə bağlı L. K. T. Locke, J. Gingell, R. Aron, M.S.Shugart, və s. müəlliflər bu siyahıda xüsusi vurğulanmalıdır. [5] Juan Linz "The perils of presidentialism"

---

ve Ekoloji Sivilizasyonun Esasları, Eskişehir: Anadolu Üniversitesi Yayınları, 2014, 180 s.

[3] Rehimli R. Azerbaycan Kamu Personel Yönetimi, Eskişehir: Anadolu Universitesi yayını, 2016, 275 səh.; Rehimli R. Azerbaycan Devlet Personel Yönetimi, Ankara: Kültür Ajans Yayınları, 2011, 256 səh.; Rehimli R. Azerbaycan Cumhuriyeti'nin Devlet Yönetimi Yapısı ve Siyasal Sistemi, Uluslararası Yönetim Akademisi Dergisi, 2020, 3:1, ss.364-384

[4] Həbibova Z. Dəyişikliklərin idarə olunması və dövlət idarəçiliyi. Dərslik. Bakı, 2018. (İnternet resursu) https://www.anl.az/el/Kitab/2019/04/2018-2356.pdf; Ələkbərova N. Siyasi imicmeykinq. Ali məktəblərin magistratura pilləsi üçün dərslik, Bakı: Elm və Təhsil, 2019. – 247 s.; Hasanoğlu M. Kamu yönetiminin değişimi ve azerbaycan yerel yönetimler sistemi üzerindeki etkisi // Uluslararası Yönetim Akademisi Dergisi , №2 (1) , ss. 111-133 . DOI: 10.33712/mana.484344; İsgəndərzadə M. Siyasət nəzəriyyəsi. Bakı:Apostrof, 2013

[5] Gingell J. və b. Modern political thought. New York: Routledge, 2000, 304 s.; Kenyon, T. Locke //Edwards A., Townshend J. Interpreting modern political philosophy, from Machiavelli to Marx. Palgrave: Macmillian, -2002. -256 s.; Shugart, "Presidentialism, Parliamentarism, and the Provision of Collective Goods in Less-Developed Countries"// Constitutional Political Economy 10, -1999,

məqaləsində prezident idarəçilik formasının avantajları olaraq hökumətdə sabitlik, prezidentin birbaşa xalq tərəfindən seçilməsi, sərt hakimiyyət bölgüsünü göstərmişdir. Prezident idarəçiliyinin zəif cəhətləri kimi isə iqtidar vədini yerinə yetirməzsə səlahiyyət müddətinin bitməsini gözləməsi, plüralist olmaq yerinə majoritar olması, kohabitasiya ehtimalını göstərmişdir. [6] Arend Lijphartın "Parliamentary Versus Presidential Government" əsərində də həmin xüsusiyyətlər güclü və zəif cəhətlər kimi irəli sürülmüşdür. [7] A. Lijphart "Patterns of Democracy: Government Forms and Performance in Thirty-Six Countries" kitabında isə 36 demokratik ölkə nümunəsində prezident idarəçilik formasını sabitlik və legitimlik baxımından parlament sistemindən üstün tutmuşdur. [8]

Bu baxımdan mövzu ilə bağlı türkdilli ədəbiyyatlar olduqca zəngindir. Türkiyə Respublikasının prezidenti Rəcəb Tayyib Ərdoğanın "Daha adil bir dünya mümkün" adlı fundamental əsəri dolayı yolla idarəçilik sisteminin tələb olunduğu formada tətbiq edilməsinin, ədalətli dövlət quruculuğunun həm də dünyada sözükeçən dövlət olmaq yolunda əhəmiyyətli addım olduğunu təsdiqləyir. [9]

Türkdilli ədəbiyyatda Türkiyədə parlament idarəçilik formasından prezident idarəçilik formasına keçidlə bağlı ikili fikir yaranmışdır. Bu müəlliflər içərisində bəziləri 100 illik parlamentarizm təcrübəsini əldə saxlayaraq rasional islahatlar tətbiq etməklə problemlərin həllinə nail olunmasının tərəfdarı olmuşlar. Kamal Gözlər, Mustafa Erdoğan, Erdal Onar, Faruk Ataay, Ergün Özbudun, Serap Yazıcı, Levent Gönenç, Nur Uluşahin, Halil Asilbay, Fevzi Demir, Zafer Üskül kimi müəlliflərin fikrincə,

---

pp.53–88; Raymond A., Sosyolojik Düşüncenin Evreleri, [10-cu nəşr] / tər. ed. Korkmaz Alemdar.- Ankara: Kırmızı,- 2014. -480 s. və s.

[6] Linz J. "Parlemantarizmin Erdemleri", (Tər. Köker L.), // Demokrasinin Küresel Yükselişi, (Red. Diamond L. və Plattner M.F.), Ankara:Yetkin, 1995, s.55

7Lijphart A. Parliamentary Versus Presidential Government. Oxford University Press; 1st edition . -1992. -272 s.

[8] Lijphart A. Demokrasi Motifleri Otuz Altı Ülkede Yönetim Biçimleri ve Performansları, (Tər: Ayas G. və Bulsun U.), İstanbul :Salyangoz, 2006. s.44-45

[9] Erdoğan R.T. Daha adil bir dünya mümkün. Ankara:Turkuvaz Kitap, 2021. – 216 s.

parlament idarəçilik forması islahatlarla mühafizə edilməlidir. [10] Kamal Gözlər "Devletin genel teorisi" kitabında prezident üsul-idarəsində prezidentin səlahiyyət müddətinin sabit olmasını həm demokratik sistem kimi, həm də özbaşınalığa, vəzifə səlahiyyətlərindən sui-istifadəyə gətirib çıxaran sistem kimi səciyyələndirmişdir. [11] Serap Yazıcı da "Başkanlık ve Yarı - Başkanlık Sistemleri: Türkiye için bir değerlendirme" kitabında ümumilikdə Türkiyənin prezident idarəçilik formasına keçidini ölkənin gələcəyi baxımından uğurlu addım kimi qiymətləndirməsə də, bu sistemi qanunverici və icraedici hakimiyyət qollarının sabit səlahiyyət müddətinin olması və bir-birlərini istefaya göndərmə haqqının olmaması baxımından güclü sistem adlandırır.[12]

Ergün Özbudun "Hükumet sistemi tartışmaları" məqaləsində prezident idarəçilik formasını dəstəkləyici bir arqument irəli sürərək bildirir ki, sağlam tək partiya sistemi tərəfindən dəstəklənən parlament idarəçilik formasındakı baş nazir prezident idarəçilik formasındakı prezidentdən daha güclüdür. Çünki, baş nazir və kabineti parlamentdəki partiya çoxluğuna arxalanaraq qanunvericiliyə təsir edə bilərlər. Sonra isə müəllif ölkədə iqtisadi inkişafın geri qalması, əhali arasında təbəqələşmənin güclənməsi, siyasi mədəniyyətin olmaması, siyasi qütbləşmənin kəskinləşməsi kimi amillərin prezident üsul-idarəsini rahatlıqla diktatorluğa çevirdiyini vurğulamışdır. Bu minvalla məqalədə bu sistemə keçidin

---

[10] Gözler K. Anayasa Hukukunun Genel Teorisi. Bursa:Ekin, 2011; Gözler K. "Türkiye'de Hükümetlere Nasıl İstikrar ve Etkinlik Kazandırılabilir?" // Türkiye Günlüğü, №62, 2000, s.25-47; Erdoğan, M. Türkiye`de anayasalar ve siyaset. Ankara:Liberte, 2012; Onar E. "Türkiye'nin Başkanlık veya Yarı-Başkanlık Sistemine geçmesi düşünülmelimidir? " // Türkiye Barolar Birliği Jurnalı, N. 77, 2005, s.71-104; Atay F. "Adalet ve Kalkınma Partisinin başkanlık sistemi üzerine değerlendirme" // Alternatif Politika, Cild 5, №3, Dekabr 2017, s.266-294; Yazıcı S. Başkanlık ve Yarı-başkanlık sistemleri. 4-cü nəşr. İstanbul:İBU, 2017; Gönenç L. Türkiye'deki Hükümet Sistemi Tartışmalarına İlişkin Değerlendirmeler //Yeni Türkiye Jurnalı, 2013, №51, s. 269-280; və s.

[11] Gözler K. Devletin Genel Teorisi. 9-cu nəşr. Bursa:Ekin Kitabevi, 2018. S244

[12] Yazıcı S. Başkanlık ve Yarı-başkanlık sistemleri. 4-cü nəşr. İstanbul:İBU, 2017. s.183

Türkiyənin gələcəyi üçün təhlükəli olduğu bildirilir.[13]

Türk tədqiqatçısı Atilla Özer "Başkanlık hükumeti sistemi ve onun Türkiye açısından uygulanabilirliği" adlı kitabında qeyd edir ki, bir sistemin demokratik olması, idarəçilik formasından daha önəmli olan partiya sistemi, dövlət-vətəndaş münasibətləri, təzyiq və mənafe qruplarının varlığı, ölkənin strukturuyla da əlaqəlidir və sistem dəyişikliyindən öncə bu amillər nəzərə alınmalıdır.[14]

Elmi tədqiqatçılar içərisində digər kütlə isə parlament idarəçilik formasının işə yaramadığını, Türkiyənin yeni sistemə ehtiyacı olduğunu bildirmişdir. Burhan Kuzu, Cem Yaşın, Kudret Bülbül, Yüksel Demirkaya, Muhammed Taha Gergerlioğlunun kitablarında, Recep Yazıcıoğlu, Fahrettin Altun, Mustafa Canbey, Bülent Orakoğlu, Mehmet Metiner, Nazim Maviş, Erdal Tanas Karagöl, Vedat Bilginin yazılarında prezident idarəçilik forması dəstəklənmişdir.[15] Bu tədqiqatlarda prezident üsul-idarəsinin hakim olduğu ölkələrdə dövlət başçısının xalq tərəfindən seçilməsinin, demokratiyanın güclənməsinə səbəb olduğu irəli sürülür. Birbaşa xalq tərəfindən seçilən bir dövlət başçısının legitimliyinin güclənəcəyi, xalqın kimi seçdiyini biləcəyi və səlahiyyəti bitdikdən sonra uyğun bilməzsə onu yenidən seçməyəcəyi prezident üsul-idarəsini əsas dəstəkləyici arqument olmuşdur. Məsələn, Türkiyədə Konstitusiya Şurasının üzvü olmuş professor Burhan Kuzu "Her Yönü İle Başkanlık Sistemi" adlı kitabında bu ölkədə tətbiq edilən prezident idarəçilik formasını "Türkiyə sayağı prezident idarəçilik forması" adlandırmış, bu modelin bəzi Latın Amerika ölkələrində

---

[13] Özbudun E. Hükumet sistemi tartışmaları karşılaştırmak // Yeni Türkiye Jurnalı, 2013, №51, s. 205-213. S208-212

[14] Özer, A. Başkanlık Hükumeti Sistemi ve Bu Sistemin Türkiye Açısından Uygulanabilirliği. Ankara: Şekerbank, 1997. S.70-73

[15] Kuzu B. Her yönü ile başkanlık sistemi. İstanbul:Babıali, 2016; Yaşın C. Sistemin başkanlığı Türkiyede başkanlık sistemi. Ankara:Angiad, 2003; Bülbül K. Cumhurbaşkanlığı sistemi: nedenler, tespitler, beklentiler. 2-ci nəşr. Konya, 2017; Demirkaya Y. Cumhurbaşkanlığı hükumet sistemi: Kamu yönetiminde değişim. İstanbul: Hiperyayın, 2018; Gergerlioğlu M.T. Türk tipi cumhurbaşkanlığı: kurumların vesayetinden halkın iktidarına. İstanbul: Hayygroup, 2017; Yazıcıoğlu R. ''Bu sistem değişmeli'', 8.4.1995, Zaman; Altun F. ''Erdoğanın başkanlığı'', Sabah 19 yanvar 2015; Canbey M. ''Tek çıkış yolu: başkanlık sistemi'', Milat 21 yanvar 2015; və s.

tətbiq edilən sistemə daha yaxın olduğunu qəbul etmişdir. Kuzu həmçinin, ABŞ-dakı federal sistemi də qəbul etmədiyini, Türkiyədə unitar sistem əsasında yerli idarəçilik forması gücləndirən model tətbiq etdiklərini bildirmişdir. [16]Onun fikrincə, ABŞ prezidentinin qərarnamə qəbul etmək səlahiyyətinin olmaması Amerikada hökumət böhranlarının yaşanmasına səbəb olur və Türkiyədə həmin problemlərin qarşısı alınmış olacaq.

Kudret Bülbül "Cumhurbaşkanlığı sistemi: nedenler, tespitler, beklentiler" kitabında parlament üsul-idarəsinin hərbi, məhkəmə, mətbuat, biznes və elm üzərində təzyiq, bürokratiya sistemi yaratdığını bildirmişdir. Müəllif prezident idarəçilik forması ilə bağlı tənqidlərə cavab vermiş, diktatorluq deyil demokratiyanı gücləndirəcəyi, vətəndaşların problemlərinin dolayı yolla həllini tapacağı, qərarnamələrin qanunvericilik prosesinə qarışmaq məqsədilə deyil, qərar qəbulunu sürətləndirmək məqsədilə edildiyini iddia etmişdir.[17]

Cem Yaşın "Sistemin başkanlığı:Türkiye'de başkanlık sistemi" əsərində prezident və parlament idarəçilik formalarını müqayisə etmiş və birincinin daha demokratik olduğunu irəli sürmüşdür.[18] Onun fikrincə, Türkiyədə prezident idarəçilik formasının irəli sürülmə səbəbi həm təmsil edilmə, həm də sabitliyin bir arada tutulmasıdır. Prezidentin sabit səlahiyyət müddətinin olması sabitliyi, çoxluğun dəstəyini tələb edən seçki sistemi isə iqtidarın legitimliyini təmin edir.[19]

Faruk Bilir "100 soruda hükümet sistemleri ve başkanlık sistemi" kitabında bildirir ki, prezident idarəçilik formasında məğlub olanın "hər şeyi itirməsi" əslində pis bir şey deyil. Belə ki, parlament sistemində həmin şəxs yenidən partiya liderliyində qalıb parlament fəaliyyətinə davam edirsə, prezident idarəçilik formasında əksinə,

---

[16] Kuzu B. Her yönü ile başkanlık sistemi. İstanbul:Babıali, 2016. S.165-166

[17] Bülbül K. Cumhurbaşkanlığı sistemi: nedenler, tespitler, beklentiler. 2-ci nəşr. Konya, 2017

[18] Yaşın C. Sistemin başkanlığı Türkiyede başkanlık sistemi. Ankara:Angiad, 2003. s.29

[19] Yaşın C. Sistemin başkanlığı Türkiyede başkanlık sistemi. Ankara:Angiad, 2003 s.83

partiya seçicilərin qarşısına növbəti seçkilərdə daha dolğun şəkildə çıxmaq üçün yeni liderləri üzə çıxarırlar. [20]

Çağdaş Zarplı “Kuvvetler Ayrılığı Kavramının Analizi: Parlamenter Sistem, Başkanlık Sistemi Uygulamaları ve Türkiye’de Başkanlık Sistemi Tartışması” məqaləsində bildirir ki, prezident idarəçilik formasının demokratik mədəniyyətin kök saldığı ölkələrdə siyasi sabitlik qaynağı olması unudulmamalıdır.[21]

İdris Bal isə “Başkanlık sistemi Türkiye’nin sorunlarını çözer mi?” məqaləsində heç bir idarəçilik formasının sehirli qüvvə olmadığını, bütün problemləri həll etməyin mümkünsüzlüyünü bildirmişdir. Onun fikrincə, Türkiyədə hansı sistemin tətbiq edilməsinə baxmayaraq, “Biz kimik?” sualı cavablanmadıqca, ictimai reallıqlar qəbul edilmədikcə, xalq-dövlət barışığı, dövlət qurumları arasında ahəng təmin edilmədikcə, islahatlar tətbiq edilmədikcə, partiyalararası qütbləşmə aradan qalxmadıqca və xalq suverenliyin mənbəyi olmadıqca probemlər həllini tapmayacaq.[22]

Rusdilli qaynaqlarda dövlət, dövlət idarəçiliyi anlayışları nisbətən geniş tədqiq olunmuşdur. Bu mövzuda araşdırma aparmış tanınmış tədqiqatçılardan Бельский К.С [23], Мицкевич А.А. [24], Рыжов В.С. [25], Чиркин В.Е. [26] və başqalarını misal çəkə bilərik. Türkiyədəki siyasi sistemlə bağlı isə Хасанов Р. Ш., Галкина Е. В.

---

[20] Bilir F.100 soruda hükumet sistemleri ve başkanlık sistemi. Ankara:Adalet, 2017 s.76

[21] Zarplı Ç. “Kuvvetler Ayrılığı Kavramının Analizi: Parlamenter Sistem, Başkanlık Sistemi Uygulamaları ve Türkiye’de Başkanlık Sistemi Tartışması”,s.479-492,s490-491

[22] Bal İ. “Başkanlık sistemi Türkiye’nin sorunlarını çözer mi?”// Yeni Türkiye, №51, 2013, s.127-140, s.138

[23] Бельский К.С. “К вопросу о предмете административного права” // Государство и право, 1997, №11, s.14-21

[24] Мицкевич А.А. “Понятие государственного управления в Административном праве Германии” // Государство и право. 2002, №6

[25] Рыжов В.С. “К судьбе государственного управления” // Государство и право, 1999, №2, s.12-20

[26] Чиркин В.Е. Сравнительное государствоведение. Москва: "Юридическое издательство Норма", 2011

adlı müəlliflərin ortaq monoqrafiyasını[27], Шлыков П.В. adlı müəllifin siyasi sistemin transformasiyasına dair məqaləsini[28] qeyd etmək olar.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqat işinin obyekti Türkiyə idarəçilik sisteminin transformasiyası, predmeti isə Türkiyənin prezident üsul-idarəsinə keçidinin siyasi, politoloji, tarixi, hüquqi və idarəçilik baxımından təhlilidir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqat mövzusunun məqsədi Türkiyə nümunəsində bir idarəçilik formasından digərinə transformasiya modelini təhlil etmək və uzun müddətlik parlamentarizm ənənələrinə sahib ölkədə prezident idarəçilik formasının tətbiqinin yaradacağı nəticələri incələməkdir. Qeyd olunan məqsəddən çıxış edərək tədqiqat mövzusunun aşağıdakı vəzifələri müəyyən olunur:

- Hakimiyyət bölgüsü nəzəriyyəsinin dərindən təhlili;
- İdarəçilik formalarının analizi, zəif və güclü tərəflərinin ortaya çıxarılması;
- Türkiyənin konstitusiya tarixində idarəçilik formalarına baxış;
- Türkiyədə hökumət böhranlarının baş vermə səbəbləri və ona təsir edən amillərin təhlili;
- Ədalət və İnkişaf Partiyası dövründə siyasi sistem dəyişikliyinin ümumi dinamikasının analizi;
- Prezident üsul-idarəsinin Türkiyə çərçivəsində tətbiqinin yaratdığı yeniliklərin incələnməsi;
- Bu yeniliklərin tətbiq imkanlarının müəyyənləşdirilməsi;
- Yeniliklərin daha da uğurlu olması üçün mümkün təkliflərin irəli sürülməsi.

**Tədqiqat metodları:** Tədqiqat işinin elmi-nəzəri və metodoloji əsaslarını siyasi elmlərin ümumi qəbul edilmiş prinsip və metodları təşkil edir. Belə ki, dissertasiya işində sistemli

---

[27] Хасанов Р. Ш., Галкина Е. В. Трансформация партийной системы современной Турции: от крайнего плюрализма к доминирующей партии: монография. – Ставрополь: Изд-во СКФУ, 2019. – 142 s.

[28] Шлыков П.В. "Трансформация партийно-политической системы Турции в 1983–2013 гг. и мобилизационные стратегии оппозиции. Часть 1" // Вестн. Моск. ун-та. Сер. 13. Востоковедение. 2013. № 3. S.36.

yanaşmadan, kontent analiz, struktur-funksional analiz, müqayisəli təhlil, ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Parlament və prezident idarəçilik sistemlərinin, eləcə də seçki sistemi, siyasi mədəniyyət, partiya sistemi ilə idarəçilik forması arasında qarşılıqlı əlaqə, Türkiyə və ABŞ idarəçilik sistemlərinin müqayisəsi üçün müqayisəli təhlil və sistemli yanaşma metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Məhkəmələr tam müstəqil olarsa, seçicilər siyasi həyatda fəal rol oynayarsa, siyasi partiyalar lider təzyiqlərindən qurtularsa prezident idarəçiliyinə keçid Türkiyə siyasi tarixində uğurlu dönüş nöqtəsi olacaq.
- ABŞ-da ölkənin tarixi şərtləri, partiya sistemi, təzyiq qruplarının varlığı, ideoloji və etnik parçalanmadan uzaq siyasi mədəniyyət kimi amillər səbəbiylə çəkindirmə və tarazlaşdırma mexanizminin düzgün fəaliyyət göstərməsi prezident idarəçiliyini uğurlu edən səbəblərdir.
- Türkiyədə partiyalararası qütbləşmə parlament idarəçiliyinin və proporsional seçki sisteminin stereotipləridir. Prezident idarəçiliyi majoritar seçki sistemi ilə bu stereotipləri aradan qaldıracaq.
- 51 faiz səs baryerinin tələb edilməsi gələcəkdə iki partiyalı sistemin ortaya çıxmasına səbəb ola bilər.
- Türkiyədə prezidentə və parlamentə bir-birlərini seçkiyə göndərmə səlahiyyətinin verilməsi prezident idarəçiliyinin digər ölkələrdə səbəb olduğu nöqsanları aradan qaldıracaq. Nəticədə siyasi böhranlar azalacaq.
- Prezidentin səlahiyyətlərinin artması nəticəsində Türkiyə dövləti həm daxili siyasətdə FETÖ, PKK və digər terror təşkilatlarına qarşı aparılan mücadilədə, həm də Suriya, Yaxın Şərq və son illərdə Aralıq dənizi hövzəsində təhlükəsizlik məsələlərinin həlli istiqamətində, eləcə də Azərbaycanla müttəfiqlik əlaqələrinin dərinləşdirilməsində və Qarabağ münaqişəsinin həll olunmasında hərbi və mənəvi dəstəyin göstərilməsi baxımından effektiv addımlar atır.

**Tədqiqatın elmi yeniliyi:**

Türkiyə idarəçilik sistemi müxtəlif elmi araşdırmaların tədqiqat mövzusu olmuşdur. Bu tədqiqat işinin yeniliyi, əsasən, onun mövzusu ilə deyil, fərqli şəkildə tərtib olunmuş planı, problem qoyuluşu ilə təmin olunmuşdur. Bundan əlavə tədqiqatın elmi yeniliyi aşağıdakı amillərlə şərtləndirilə bilər:

- İlk dəfə olaraq Ədalət və İnkişaf Partiyası dövründə Türkiyə siyasi sistemi kompleks şəkildə araşdırılmış və partiyanın sistem dəyişikliyi istiqamətində həyata keçirdiyi siyasət təfərrüatı ilə tədqiq edilmişdir;
- İlk dəfə olaraq idarəçilik formalarının təkamülü sistemli şəkildə araşdırılmış, siyasi rejimlərə uyğun olaraq, hakimiyyət qolları arasında münasibət kontekstində idarəçilik sistemlərinin təsnifatı irəli sürülmüşdür.
- Prezident idarəçilik formasının Türkiyədə tətbiq imkanları hərtərəfli formada tədqiq edilmişdir;
- Siyasi sistem dəyişikliyinin ümumi dinamikası siyasi, sosial, iqtisadi sferalar çərçivəsində təhlil edilmişdir;
- Yeni idarəçilik sisteminin Türkiyənin daxili və xarici siyasətində nə dərəcədə uğurlu olacağı araşdırılmış, üstünlükləri və qüsurları proqnoz edilmişdir;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Bu tədqiqatda müasir dövr Türkiyə siyasi sistemi kompleks şəkildə tədqiq edilmiş, həmçinin yeni sistemin nəticələrinin elmi – nəzəri və praktiki əhəmiyyəti müəyyən edilmişdir. Belə ki, elmi-nəzəri baxımdan müvafiq mövzuda və əlaqəli anlayışlarla bağlı ilk dəfə təfsilatlı araşdırma aparılmış, irəli sürülən müddəalar bundan sonrakı elmi araşdırmalar üçün baza rolunu oynamışdır. Oxşar problemlərin təhlili və araşdırılması zamanı dissertasiya işinin materiallarından istifadə oluna bilər. Dissertasiya işi ali məktəblərdə “Dövlət idarəçiliyi”, yaxud “Siyasi idarəçilik” kurslarının tədrisi prosesində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “Dövlət qulluğu və kadr siyasəti” kafedrasında, ölkə kitabxanalarında, həmçinin, Türkiyə Böyük Millət Məclisinin

arxivində, Ədalət və İnkişaf Partiyası iqamətgahının arxivində, Türkiyə Milli Kitabxanasında və Ankarada yerləşən universitetlərin kitabxanalarında işlənilmişdir. Dissertasiyanın məzmunu və əsas müddəaları müəllifin Azərbaycanda və xaricdə keçirilən elmi konfranslara təqdim olunmuş tezislərində, eləcə də Azərbaycanda və xaricdə müxtəlif jurnallarda çap olunmuş elmi məqalələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Prezident yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrası.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, 6 paraqraf, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və ixtisarlardan ibarətdir. Giriş – 20 058 işarə, I Fəsil - 75 795, II Fəsil - 65 998, III Fəsil - 80 193, Dissertasiyanın ümumi həcmi 290 911 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **Giriş** hissəsində tədqiqat mövzusunun aktuallığı əsaslandırılır, problemin işlənmə dərəcəsi təhlil edilir, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri haqqında geniş məlumat verilir, nəzəri-metodoloji əsasları, elmi yeniliyi, müdafiəyə çıxarılan müddəalar, işin nəzəri və praktiki əhəmiyyəti göstərilir.

Dissertasiyanın birinci fəsli **"Dövlət idarəçilik formalarının yaranması və təkamülü siyasi sistemin transformasiyasının əsas amili kimi"** adlanır. Bu fəsil iki yarımbaşlıqdan ibarətdir.

Birinci fəslin **"Siyasi sistemin transformasiyası probleminin nəzəri-metodoloji əsasları"** adlı I yarımfəslində ilk olaraq siyasi transformasiya, siyasi sistem və siyasi rejim anlayışları təhlil edilir. Qeyd edilir ki, tranzitologiyanın əsas predmeti olan "siyasi sistem" anlayışı klassik beynəlxalq münasibətlər nəzəriyyəsindən başlayaraq müasir beynəlxalq münasibətlər nəzəriyyəsinə qədər müəyyən mərhələ keçmiş, bu mərhələlər həmin dövrün araşdırmaçıları tərəfindən fərqli aspektlərdən təhlil edilmişdir. Bildirilir ki, hakimiyyət bölgüsü ilə suverenlik anlayışı klassik mənasından

uzaqlaşdırılıb, bugünkü demokratik mexanizmlər çərçivəsinə salınmışdır. Klassik suverenlik anlayışı bir sistemdən digərinə keçid, yəni feodalizmdən mütləq monarxiyalara transformasiyanın hüquqi və siyasi əsasları olaraq formalaşdırıldığı kimi, hakimiyyət bölgüsünün özü də mütləq monarxiyalardan insan hüquqlarının təmin olunduğu liberal demokratik rejimlərə keçidin əsası olmuşdur.

I fəslin II yarımfəsli **“Respublika idarəçilik formaları: təsnifatı və müqayisəli təhlilinin qiymətləndirilməsi”** adlanır. Burada idarəçilikdə üç əsas sistem– prezident, parlament və yarı-prezident üsul-idarələri təhlil edilir. Sözügedən sistemlərin güclü və zəif tərəfləri müqayisə olunur. ABŞ-da prezident idarəçiliyi, İngiltərədə isə parlament idarəçilik sistemi nümunə olaraq götürülür. Əlbəttə ki, bütün ölkələrdə tətbiq edilmiş sistemlər arasında mütləq fərqlərin mövcudluğu qəbul ediləndir. Ona görə ki, sistemlərin tətbiq edildiyi ölkələrdə mədəniyyət, geostrateji və geosiyasi vəziyyət fərqli olur. Eyni zamanda bu həmin ölkə vətəndaşlarının dünyagörüşü ilə də bağlı ola bilər. Yəni, fərqli siyasi mədəniyyətə, seçki və partiya sisteminə malik olan ölkələrin hamsından eyni nəticəni gözləmək qeyri-mümkündür. Sözügedən sistemlərdə bəzi qüsurların olması normal hal kimi qarşılana bilər. Ona görə də, demək olar ki, plüralizm və demokratiyanın pozulması halına hər üç idarəçilik sistemində də rast gəlmək olur. Buna misal olaraq, parlament sistemində koalisiya hökümətlərinin qurulması zamanı ortaya çıxan problemləri, yarı-prezident sistemində isə prezident, parlament çoxluğu və hökumətin fərqli partiyalara məxsus olmasının (cohabitation) nəticə etibarı ilə çoxluq demokratiyasına uyğun gəlməyən bəzi addımları göstərmək mümkündür. Burada fikrin əsası ondan ibarətdir ki, sözügedən idarəçilik formalarına bütün problemləri həll edəcək əsas vasitə kimi yanaşmaq doğru olmaz. Seçki periodunda və hökumət qurulduqdan sonra müxalif fikirlərə qarşı tolerantlıq, sərbəst toplaşma, siyasi iştirak, uzlaşma mədəniyyətinin olması qeyd edilən üç sistemin mövcudluğunu təmin edən əsas faktorlardan biri kimi qəbul edilə bilər. Ona görə də, təkcə “hakimiyyət bölgüsü” prinsipi yetərli deyil. Bildirilir ki, idarə olunanlar idarə edənləri seçməkdə sərbəst olduğu kimi, idarə edənlər də yenidən seçkidə qalib gəlmələri üçün idarə olunanlar qarşısında

cavabdehlik daşıyır. İdarə edənlər idarə onların etimadını qazanmaq üçün üzərlərinə hüquqi və siyasi öhdəlik götürürlər. Burada digər vacib məqam isə təşkilatlanma hüququ ilə bağlıdır. Yəni, istənilən dövlətdə təşkilatlanma təşəbbüsləri məhdudlaşdırılmayıbsa, siyasi müxtəliflik özünü daha rahat şəkildə ifadə edə bilirsə, o zaman həmin idarəçiliyi demokratik hesab etmək mümkündür.

Bu yarımfəsildə qeyd edilən məsələlərdən biri də 1980-ci ilə qədər parlament idarəçilik formasına daha çox üstünlük verilməsidir. 1980-ci ildən sonra isə tədricən bu tendensiyanın dəyişərək prezident idarəçiliyi istiqamətinə çevrildiyini görə bilərik. Təbii ki, burada Hantinqtonun ``Demokratikləşmənin üçüncü dalğası`` əsərini xüsusilə qeyd etmək olar. O, öz əsərində irəli sürdüyü III dalğada qeyd etdiyi əsas məsələ parlament respublikasından prezident respublikasına keçid hallarının sayının artmasıdır. Sosialist sistemindən kapitalizm sisteminə keçid etmiş dövlətlərdən yalnız Macarıstanı, Çexiyanı və Slovakiyanı parlament sistemini mənimsəmiş dövlətlər kimi görə bilərik.

Dissertasiyanın ikinci fəsli "**Türkiyənin Siyasi Sistemində İdarəçilik Formalarının Təşəkkülü və İnkişaf Xüsusiyyətləri" adlanır.** II fəslin **"Osmanlı imperiyasının dövlətçilik tarixində idarəçilik formalarının yaranması və həyata keçirilmə xüsusiyyətləri"** adlı ilk yarımfəslində Osmanlı dövlətinin idarəçilik təcrübəsi araşdırılıb. Qeyd edilib ki, Türkiyə Cümhuriyyətində bir əsrə yaxın mövcudluğunu qoruyub saxlamış parlament sisteminin kökündə Osmanlı dövründə həyata keçirilmiş modernləşmə prosesi dayanır. Osmanlı dövləti dünya mədəniyyətinə qoşulmaq üçün son zamanlarda bəzi modernləşmə cəhdləri həyata keçirməyə başlamışdır və buraya konstitusiya dəyişikliklərini də əlavə etmək mümkündür. Konstitusiyada aparılmış modernləşmə islahatları padşahın səlahiyyətlərinin məhdudlaşmasına hesablansa da, məqsədə çatmaq mümkün olmamışdır. Əvəzində isə sadəcə olaraq padşahın var olan səlahiyyətlərini yazılı formaya salmışdır. Osmanlı idarəçilik sistemindən respublika idarəçilik sisteminə keçid zamanı faydalı idarəetmə resursları qalmasa da, hüquqi dövlətin əsas siyasi prinsipləri hesab edilən təmsil, parlament, müxalifət, həmçinin milli suverenliyin meydana gəlməsində ciddi təkan vermişdir.

II fəslin **“XX əsrdə Türkiyə Cümhuriyyətinin siyasi sistemində idarəçilik formasının təşəkkülü və səciyyəvi xüsusiyyətləri”** adlı II yarımfəslində respublika qurulduqdan sonra edilən konstitusiya dəyişiklikləri təhlil edilib. Bildirilib ki, 1921 və 1924-cü illər arasında Təşkilati Əsasiyyə Qanununun tətbiq edildiyi dövrdə hakimiyyət birliyi ideyasının güclü olması və həmin dövrün prinsip və şərtlərinin dövlətçiliyin qorunmasına hesablanması iqtidarla bağlı hansısa problemlərin ortaya çıxmasına səbəb olmamışdır. Təbii ki, 1924-cü il konstitusiyasında hakimiyyət bölgüsü müəyyən mənada tətbiq edilsə də, sistemdə baş verən xaotik vəziyyət hakim mövqedə qalmaqda idi. Adı parlament sistemi olsa da, Türkiyədə cümhuriyyətin quruluşundan 1938-ci il Atatürkün vəfatınadək, hətta müəyyən mənada 1950-ci ilə qədər də demək olar ki, real olaraq prezident idarəçiliyinin tətbiq edildiyini müşahidə etmək olar. XX əsrin 50-60-cı illərindən etibarən Türkiyədə icraedici hakimiyyətin fəaliyyətindən və gücündən narazılıq artmağa başlanmışdır. Bunun isə ən başlıca səbəblərindən bir neçəsi partiyanın sərbəst fəaliyyət quruluşuna malik olmaması, seçki sistemindəki qüsurların mövcudluğu və s. məsələlər idi ki, bu da nəticə etibarı ilə qanunverici və icraedici hakimiyyətin dialoqu kimi deyil, iqtidar-müxalifət dialoqu kimi başa düşülürdü.

1961-ci ildə hazılanmış konstitusiyaya nisbətən 1982-ci il konstitusiyası rasional parlament idarəçiliyi yaratmaq baxımından Türkiyə siyasi mühitində olduqca mühüm əhəmiyyətə malikdir. 1961-ci il konstitusiyanın qüvvədə olduğu dövrdə həm hökumətlərin formalaşdırılması, həm də prezident seçkilərində yaşanan problemlərin həll edilməsi baxımından 1982-ci konstitusiyanın faydalı olduğunu qeyd etmək olar. Bu konstitusiyaya əsasən prezidentin səlahiyyətlərinin artırılması və həmçinin mövqeyinin gücləndirilməsi çəkindirmə və tarazlaşdırma mexanizminin daha işlək hala gəlməsi məqsədini güdürdü. Sözsüz ki, bu addımların da özünəməxsus problemləri ortaya çıxmağa başladı. Belə ki, artırılan səlahiyyətlər müəyyən həddən sonra avtoritarlıq meyillərinin daha da güclənməsinə şərait yaratmışdır. Buna misal olaraq, eyni siyasi partiyanın, yəni ANAP üzvü olan eks-prezident Turqut Özal və eks-baş nazir Süleyman Dəmirəlin prezident və baş nazir kimi

səlahiyyətlərinin icrası zamanı qarşılaşdıqları problemləri göstərmək olar.

Bu yarımfəsildə bəhs edilən növbəti maraqlı məsələ ondan ibarətdir ki, Türkiyədə siyasi qeyri-sabitliyin kökündə parlament idarəçiliyinin dayandığı göstərilir və ona görə də, bu sistem tənqid edilir. Çoxpartiyalı sistemə keçiddən sonra ölkədə qısamüddətli koalisiya hökumətlərinin qurulması və anlaşmazlıq səbəbilə dağılması bu tənqidlərin əsas səbəbləri kimi göstərilməyə başladı. İcraedici hakimiyyətin qanunverici hakimiyyət qarşısında cavabdehlik daşımaması və həmçinin xalqın onu birbaşa təyin edə bilmək imkanına malik olmaması, xalqın qarşısında hansısa cavabdehlik daşımaması Türkiyədə mövcud problemlərin kökündə dayanan əsas amillərdən biri kimi qiymətləndirilə bilər. Parlament idarəçilik sisteminin digər önəmli problemlərindən biri də koalisiya hakimiyyətlərinin qurulmasına imkan yaradılması idi. Bu sistemin işləkliyinə təkan verən isə proporsional seçki sisteminin tətbiq edilməsi idi. Türkiyədə parlament idarəçiliyinin şərtlərinə uyğun olmayan digər məsələ prezidentə verilən səlahiyyətlərin çoxluğu idi ki, bu da hər zaman Türkiyədə prezident üsul-idarəsinin aktivliyindən xəbər verir. Porblem isə ondan ibarət idi ki, prezident həm geniş səlahiyyətlərə maəlik olmuş, həm də idarəetmədə cavabdehlik daşımamışdır. Ona görə ki, parlament idarəçiliyinin şərtlərində prezident vəzifəsi simvolik xarakter daşıyır. Burada əsas səlahiyyətlər parlament və hökumətə məxsus olmalı, hökumət də öz növbəsində parlament qarşısında cavabdehlik daşımalıdır.

Dissertasiyanın üçüncü fəsli “**Ədalət və İnkişaf Partiyasının Hakimiyyəti Dövründə Türkiyənin Dövlət İdarəçilik Sisteminin Təkmilləşməsi” adlanır.** Sonuncu fəslin “**Ədalət və İnkişaf Partiyasının hakimiyyəti dövründə idarəçilik forması ilə bağlı islahatlar”** adlı ilk yarımbaşlığında Amerikada mövcud olan prezident üsul-idarəsi nümunə olaraq qəbul edilmişdir. Məhz ona görə də ABŞ-da və Türkiyədə mövcud olan prezident idarəçilik sistemləri müqayisəli şəkildə təhlil edilmişdir. Bildirilib ki, Türkiyə prezident üsul-idarəsində özünəməxsus nümunə yarada bilmişdir. ABŞ-da və Türkiyədə tətbiq edilən sistemlər mahiyyətcə eyni olsa da, fərqli xüsusiyyətlərə malikdir. Müqayisə üçün demək olar ki,

ABŞ-da parlament və prezident seçkiləri fərqli vaxtlarda baş tutur. Onların hər ikisinin fəaliyyət müddəti fərqli olur. Türkiyədə isə həm parlament, həm də prezident seçkiləri eyni vaxtda baş tutur. Həmçinin, onların fəaliyyət müddətləri də eyni olur. Təbii ki, fərqlər bununla da bitmir. Türkiyədə tətbiq edilən yeni sistemə əsasən prezidentin təkbaşına icra etdiyi səlahiyyətləri ABŞ-da prezident Konqresin razılığı əsasında həyata keçirir. Bundan əlavə, ABŞ-da fəaliyyət göstərən siyasi partiyaların idarəetmədə tətbiq etdiyi sərbəstliklə Türkiyədə fəaliyyət göstərən siyasi partiyalar arasında sərt ideoloji ziddiyyətlərin mövcud olması sistemlər arasında mövcud olan digər fərqlərdəndir. ABŞ-da prezident partiya sədri ola bilmir, Türkiyədə isə bunun əksidir. Yəni, prezident partiya sədri ola bilir. Türkiyədə həm prezidentə, həm də parlamentə bir-birlərini yeni seçkiyə göndərmə səlahiyyətləri verilir ki, ABŞ-da nə Konqres, nə də prezident belə bir səlahiyyətlərə malik deyil. Digər bir qanuna görə, ABŞ-da hər iki palatanın 2/3 səs çoxluğu ilə prezidentin veto etdiyi qanun layihələri yenidən qüvvəyə mindiyi halda, Türkiyədə bu məsələ bir az fərqli olur. Yəni, prezidentin veto etdiyi hansısa qanun layihəsini parlament ½ səs çoxluğu ilə qüvvəyə mindirə bilər. Burada digər önəmli məsələlərdən biri də qərarların qəbul edilməsi ilə bağlıdır. Burada maraqlı olan digər bir məsələ Türkiyə prezidentinin istənilən mövzu barəsində uyğun bildiyi vaxtda qərarnamə qəbul etmək imkanına malik olmasıdır. ABŞ-da isə bu proseduru həyata keçirtmək üçün bəzi istisna hallar nəzərdə tutulmuşdur. ABŞ qanunlarına görə ölkə prezidenti yalnız xarici siyasətlə bağlı məhdud hallarda, eləcə də fövqəladə vəziyyətdə qərarnamə qəbul etmək səlahiyyətlərinə malikdir.

Bu yarımfəsildə irəli sürülən arqumentə əsasən, Türkiyədə partiyalararası qütbləşmə parlament idarəçiliyinin və proporsional seçki sisteminin stereotiplərindən biri kimi dəyərləndirilə bilir. Çünki, əvvəlki seçki sisteminə əsasən parlament seçkilərində partiya rəhbərinin müəyyən etdiyi siyahının ardıcıllığı əhəmiyyət daşıyırdı və nəticədə, partiya üzvləri sədrdən aslı vəziyyətdə idi. Prezident idarəçiliyində isə majoritar seçki sistemi bu stereotipləri aradan qaldıra bilər. Belə ki, yeni seçki sistemində bu siyahını seçici müəyyənləşdirdiyi üçün partiya üzvlərinin şəxsi reputasiyalarına

görə səs verilmə ehtimalı arta bilər. Lakin prezidentin partiya sədri ola bilməsi bu baxımdan çətinlik yaradır. Yarımfəsildə həmçinin, Türkiyədə prezidentə və parlamentə bir-birlərini seçkiyə göndərmə səlahiyyətinin verilməsi müsbət addım kimi qiymətləndirilmişdir. Belə ki, ABŞ kimi demokratik idarəçiliyin inkişaf etdiyi, uzlaşma mədəniyyətinin formalaşdığı, partiyadaxili demokratiyanın mövcud olduğu ölkədə belə prezidentin və parlamentdəki çoxluğun fərqli siyasi mövqedə olması ikili legitimlik, hökumət ilə parlament arasında qarşılıqlı iddialaşmalar və iqtidar mübarizələrinə yol aça bilir. Türkiyədə tətbiq edilən bu üsul hökumət böhranlarının aradan qaldırılması baxımından uğurlu addım kimi qəbul edilə bilər.

Əldə edilən digər nəticə ondan ibarətdir ki, 2017-ci il referendumu ilə bağlı müzakirələrin ana xəttini şəxslərin nüfuzu təşkil edirdi. Amma burada vacib olan kimin prezident olmasından daha çox, sistemin necə və hansı şərtlər daxilində işləmək qabiliyyətinə malik olmasıdır. Burada xüsusilə qeyd etmək lazımdır ki, Türkiyə siyasətində önəmli mövqeyə sahib olmuş bəzi siyasətçilər hələ hazırkı prezident Ərdoğandan xeyli qabaq öz hakimiyyətlərinin ən çətin və böhranlı dövrlərində belə prezident üsul-idarəsinə keçidin vacibliyini bildirmişdilər. Bu liderlərdən fərqli olaraq Rəcəb Tayyib Ərdoğan baş nazir olan zaman, xüsusilə də hakimiyyətinin güclü dövründə bu təkliflərlə çıxış etmişdir.

**"Ədalət və İnkişaf Partiyasının idarəçilik siyasətinin konseptual təhlili"** adlı ikinci yarımfəsildə qeyd edilib ki, Türkiyədə prezident idarəçiliyi ilə bağlı söylənilən fikirlərin tutarlı əsası yoxdur. Təbii ki, bu fikirlər müxtəlif arqumentlərlə öz təsdiqini tapmışdır. Sözsüz ki, əsas tənqid hədəfi baş tutmuş bu dəyişikliyin Ərdoğanın şəxsi maraqlarının təmin edilməsinə yönəlməsi ilə bağlıdır. Əgər biz 1982-ci il konstitusiyasına baxsaq görəcəyik ki, həmin ildə qəbul edilmiş konstitusiyanın maddələrində idarəçilik sistemində prezidentin öz fəaliyyətindən dolayı hansısa cavabdehlik daşımadığı və yalnızca vətənə xəyanət cinayəti ilə bağlı ittiham edilməsi nəzərdə tutulmuşdur. 2017-ci ildə baş tutmuş konstitusiya dəyişikliklərində isə prezidentin ittiham olunma səbəblərinin əhatə dairəsi daha da genişləndirilmiş və ittiham maddələri artırılmışdır. Aparılan təhlillərdən belə qənaətə gəlmək olar ki, Ərdoğanın tək adam

hakimiyyəti formalaşdırmaq niyyəti və istəkləri yoxdur. Ona görə də, konstitusiyada prezidentin səlahiyyət müddətinin yalnız 2 dövrlə məhdudlaşması nəzərdə tutulub. Amma bundan əvvəlki sistemlərdə bu tipli məhdudiyyətlər nəzərdə tutulmamışdır. Burada digər bir iddia isə prezident idarəçilik formasının Türkiyədəki partiya sistemi ilə uyğunsuzluq təşkil etməsidir ki, bu da yalnış yanaşma kimi qəbul edilə bilər. Türkiyədə yeni idarəçiliyə keçəndən sonra majoritar seçki sistemi tətbiq olunur ki, bu proses məclisdə demokratik fikirlərin artmasına şərait yaradacaq. Eyni zamanda tətbiq edilən sistemə görə seçici partiya nüfuzuna görə yox, namizədin şəxsi reputasiyasına və keyfiyyətlərinə görə onu seçəcək. Bu hadisə də nəticə etibarı ilə seçilənin siyasi müstəqilliyinin artmasına və partiya sədrindən asılılığının azalmasına şərait yaradacaq, həmçinin keyfiyyətçə yeni və sərbəst qurluşlu partiya sisteminin formalaşmasına rəvac verəcək. %51 səs limitinin tətbiq edilməsi isə gələcəkdə ABŞ-da olduğu kimi ikipartiyalı sistemin formalaşmasına təkan ola bilər. Həmçinin fərqli partiyaların həm iqtidarda, həm də məclisdə təmsil olunması isə mümkünsüzləşir. Qeyd edilən bu proseslər isə siyasi böhranların yaşanma ehtimalını azalan xətt üzrə davam etdirəcək. Yeni sistemin başqa üstünlüklərini isə bu qayda üzrə sıralamaq mümkündür: icraedici hakimiyyətə məxsus olan səlahiyyətlərin tamamının yalnız prezidentə verilməsi nəticəsində hakimiyyətdə yaranma ehtimalı olan iki başlı vəziyyət aradan qalxır və həmçinin, bu sistemə qədər mövcud olmuş qarışıqlıq sıradan çıxır. Xalqın öz idarəedənini birbaşa müəyyənləşdirmək imkanı, dövlət və xalq arasında birbaşa dialoqunun gücləndirilməsi, partiyadan asılı olmayan şəxslərin öz şəxsi liderlik keyfiyyətləri hesabına namizədliklərini irəli sürə bilməsi və hətta nazir seçilə bilməsi üçün imkanlar yaranır. Qəbul olunmuş yeni seçki sisteminə görə çox sayda partiyanın parlamentdə təmsil olunması üçün imkanlar yaranır ki, bu da plüralizmi, dolayısı ilə demokratiyanın gücləndirməsinə xidmət etmiş olur. Dövlətin idarə edilməsində daha sürətli və çevik qərar qəbulu prosesini gücləndirir. Əvvəlki qaydadan fərqli olaraq parlamentdən kənar nazirlərin təyin olunması və partiya mənsubiyyətinin mütləqliyinin aradan qalxması nəticəsində dövlətə fayda verəcək şəxslərin seçilməsinə geniş imkanlar açılır. Sərt hakimiyyət bölgüsü nəticə

etibarı ilə hakimiyyət qollarını bir-birindən ayırır ki, bu da parlamentdə iqtidarın mövqeyindən aslı olmayaraq müstəqil qanun və qərarların qəbulu prosesinə ciddi təsir göstərmək imkanı əldə edir. Bu sistemin digər özəlliklərindən biri isə nazirlərin millətvəkili olmamasıdır. Bu da onu deməyə əsas verir ki, nazir işini kənara qoyub seçkilərə fokuslanmayacaq.

Sonuncu yarımfəsildə həm də yeni dəyişikliklərin zəif cəhətləri təhlil edilərək müəyyən nəticələr əldə olunmuşdur. Aparılan təhlillərin nəticəsində belə qənaətə gəlinmişdir ki, "%50+1" limitinin qoyulması partiyalar arasında istəmədən də olsa bir-birləri ilə süni şəkildə yaxınlaşmanı gücləndirməyə vadar edir. Təbii ki, qurulan ittifaqlar nəticəsində müəyyən səs faizinin toplanması asanlaşa bilər, amma bu birliyin effektli olması o qədər də inandırıcı görünmür. Burada başqa bir məsələ isə prezidentin geri göndərdiyi hər hansı qanun layihəsinin məclis üzvlərinin 3/5-ün təsdiqi ilə olduğu kimi qəbul olunmasıdır. Bu da o deməkdir ki, prezidentin istəmədiyi hansısa qanunların və qanun layihələrinin məclis tərəfindən qəbulu prosesi çətinləşir. Türkiyədə həm prezident, həm də parlament seçkilərinin bir gündə keçirilməsi parlamentin prezidentdən aslılıq imkanlarını daha da artıra bilər. Prezidentə və parlamentə bir-birlərini seçkiyə göndərmək səlahiyyətinin verilməsinin müsbət nəticəsi olduğu kimi, hər iki hakimiyyət qolu arasında tarazlığın pozulması baxımından neqativ tərəfi də mövcuddur. Burada anlaşılmaz olan digər məsələ parlamentin seçkiyə getmə qərarını üzvlərinin 3/5-ün təsdiqi ilə verə bilməsidir. Baxmayaraq ki, parlament özü özünü buraxması çətin olur, amma prezidentin parlamenti seçkiyə göndərməsində hansısa problem yaranmır və prezident daha rahat şəkildə parlamenti yenidən seçkiyə göndərə bilər.

Nəticədə tədqiqata yekun vurulur, ümumiləşdirmələr aparılır, onların əsasında nəzəri və praktiki əhəmiyyət kəsb edən təklif və tövsiyələr irəli sürülür. Müəllif belə qənaətə gəlir ki, Türkiyə siyasi tarixinin son yarım əsrində baş vermiş və baş verən proseslər: ard-arda qurulan koalisiya hökumətlər, tez-tez yaranan hökumət böhranları, terrorla mübarizə məsələsi, adət halını almış hərbi çevrilişlər, separatizmin güclənməsi Türkiyədə keyfiyyətcə yeni

güclü prezident idarəçiliyinin yaradılmasını labüd edirdi. 2007-ci ildə keçirilmiş referendumun nəticəsinə görə prezidentin xalq tərəfindən seçilməsi qaydasının tətbiq edilməsi bəzi qaranlıq məqamların və haqlı sualların yaranmasına şərait yaratdı. Türkiyənin siyasi və iqtisadi sahələrində, xüsusilə də regional siyasətdə uğurlu siyasət yürütmüş Ərdoğan hakimiyyəti Türkiyənin birliyini və bütövlüyünü qoruyub saxlamaq məqsədilə güclü prezident idarəçilik sisteminin tətbiqi ilə bağlı təklifi irəli sürməyə başlamışdırlar. Əlbəttə ki, sözügedən sistemin işləkliyini təmin etmək üçün mütləq şəkildə məhkəmələr tam müstəqil olmalı, vətəndaş cəmiyyəti, digər siyasi və sosial qruplar xalqın maarifləndirilməsi məsələsinə diqqət yetirməli, seçicilər özlərini siyasi proseslərdə daha da aktivləşdirməli, ən əsası isə partiyalar öz liderlərinin təzyiq imkanlarından kənarda qalmalıdır. Yeni tətbiq edilən sistemin Türkiyədə müvafiq problemlərin həllini aradan qaldıracaq üstünlüklərə sahib olması siyasi sisteminin transformasiyasının uğurla həyata keçəcəyi iddiasını gücləndirir. Heç bir sistem nöqsansız olmadığı kimi, Türkiyədə də bəhs olunan sahədə qüsurlar prezident idarəçiliyinin məhz Türkiyə modeli əsasında tətbiqi, özünəməxsus xüsusiyyətləri sayəsində aradan qalxacağını ehtimal etmək mümkündür. Üstünlüklərin və nöqsanların daha dəqiq müəyyənləşdirilməsi üçün vacib olan şərtlərdən biri də müəyyən olunmuş seçki dövrünün tamamilə başa çatmasını izləməkdir. Qısa olaraq onu demək mümkündür ki, sözügedən çatışmazlıqların aradan qaldırılacağı təqdirdə prezident idarəçiliyinə keçidi Türkiyə siyasi tarixi üçün uğurlu dönüş saymaq olar.

**Dissertasiyanın əsas nəticələrini əks etdirən nəşr olunmuş elmi əsərlər:**

1. “Respublika İdarəçilik formalarının təsnifatı” // “Heydər Əliyev irsi və Azərbaycan Respublikasında innovativ dövlət idarəçiliyi islahatları” mövzusunda doktorant və dissertantların elmi-praktiki konfransının materialları. Bakı, 2017, səh. 126-136

2. Prezident və parlament idarəçilik formalarının müqayisəsi // Dövlət İdarəçiliyi: Nəzəriyyə və təcrübə Jurnalı. İSSN 2309-1347. №4 (64)2018. səh. 295-302

3. “Suverenlik və hakimiyyət bölgüsü arasında əlaqə”- Doktorant və Gənc Tədqiqatçilarin XXII Respublika Elmi Konfransi materialları, Bakı, 22.11.2018, səh. 120-125
4. “Osmanlı konstitusiya tarixində dövlət idarəçilik sistemi” // “Azərbaycan Respublikasının beynəlxalq cəmiyyətə inteqrasiyası və hüquqi dövlət quruculuğunda hüquq elminin müasir inkişaf tendensiyaları” adlı beynəlxalq konfrans materialları, Bakı, 14.12.2018, səh.288-292
5. “Transition to the new administrative form in Turkey in the context of its security policy” - Міжнародній науковій конференції. «Безпека в сучасному світі». 27-28 September 2019 . Dnipro, Ukraine, səh. 25-27
6. “Why american presidential system is successfull?” // Гилея Науковий вісник. İSSN 2076-1554. Випуск 1 4 3 (4) Ч.3. 2019. Политични науки. 28-32
7. “Differences between American and Turkish presidential systems” - International law and integration problems scientific analytical journal. №1 (56)2019. səh.48-56
8. Türkiyənin fərqli idarəçilik sistemlərində suverenlik anlayışı // Dövlət İdarəçiliyi: Nəzəriyyə və təcrübə Jurnalı. İSSN 2309-1347. №3 (67)2019. səh. 199-206
9. “Türkiyədə prezident idarəçiliyi lazımdırmı?” // Sivilizasiya. İSSN 2519-4003. Cild 8 №03 2019 (43) səh.114-122
10. “Qloballaşmanın Türkiyədə Milli Dövlətə Təsiri” // Geostrategiya beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal. İSSN 2664-4975. №02 (56)2020. səh. 43-48
11. “Türkiyədə idarəçilik sistemi dəyişikliyinin xarici siyasətə təsiri” // Geostrategiya beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal. İSSN 2664-4975. №01 (61)2021. səh. 17-20
12. “Türkiyədə referendum dəyişikliyinin ordu və hökumət sistemlərinə təsirləri” – Karabağ. II Uluslararası Sosyal ve Beşeri Bilimlerde Modern Araştırmalar Kongresi. 8-10 noyabr 2021. ISBN: 978-625-8007-79-4. Səh. 325-328
13. “Cumhurbaşkanlığı hükumet sistemine uygun olarak Türkiye’de yapısal değişiklikler” – Uluslararası Antalya Bilimsel Araştırmalar

ve Yenilikçi Çalışmalar Kongresi. 18-21 Aralık, 2021. ISBN: 978-625-7898-57-7. s. 444-447

14. "Hükumet sistemi değişikliği bağlamında Türk diplomasisinin başarıları" – 5. Uluslararası Nevruz İlmi Araştırmalar Kongresi.17-21 Mart, 2022. ISBN: 978-625-8377-20-00. s.72-75

Dissertasiyanın müdafiəsi 18 noyabr 2022-ci il saat 11:00-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində yaradılmış BED 2.30/1 Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, Lermontov küçəsi, 74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 17 oktyabr 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14.10.2022
Kağızın formatı: A5
Həcmi: 44160
Tiraj: 100